BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Sosial-siyasi elmlər seriyası 2006*

# "AĞ ÖLÜM" VƏ ONA QARŞI MÜBARİZƏ FORMALARI

**İ.Ə.EYYUBOV**
***Bakı Dövlət Universiteti***

*Narkotik bitkilər eramızdan əvvəl Çində, Hindistanda, Yunanıstanda əkilib-becərilmiş, insanlar ondan istifadə etmişlər.*

*Narkomaniya – (narki-bihuşluq+maniya) yunan sözü olub narkomanik asılılıq deməkdir.*

*Tibb alimləri müəyyən etmişlər ki, narkomanlıq ağ ciyər xəstəliklərinin törəməsinə, psixoza, sonsuzluğa və s. xəstəliklərə səbəb olur.*

*Narkomanlığa qarşı bir sıra dövlətlərdə olduğu kimi, respublikamızda da profilaktik tədbirlər həyata kezirilir. Lakin buna baxmayaraq, yenə də narkotik bitkilər əkilib-becərilir və müxtəlif yollarla əldə olunur.*

*Məqalədə narkotik maddələrin nədən alındığı və onun növləri haqqında fikirlər verilmişdir. Burada narkomanlığa qarşı daxili işlər orqanlarından alınmış bir sıra faktlar da öz əksini tapmışdır.*

*Məqalədə qeyd edilir ki, ermənilər Asiya və Afrika ölkılərindən gətirilən narkotik maddələri tranzit yolu vasitəsi kimi Dağlıq Qarabağ zonasından Avropa ölkələrinə ötürürlər. Eyni zamanda ermənilər işğal etdikləri Azərbaycan rayonlarında narkotik maddələr əkib-becərirlər.*

Eramızdan çox-çox əvvəl, qədim zamanlarda alkoqollu içkilərlə yanaşı, narkotik maddələrin insan orqanizminə mənfi təsir göstərməsi müəyyən edilmişdir.

Eradan əvvəl qədim yunan filosofu Herodot göstərmişdir ki, çətənə bitkisinin yanması zamanı əmələ gələn tüstü insana bihuşedici təsir göstərir.

Eradan əvvəl narkotik maddələr misirlilərə də yad deyildir. O zaman burada narkotik maddələrdən istifadə edən adamlara mənfi münasibət bəsləmişdilər. Qədim Çində isə narkotik maddələrin qarşısının alınması üçün qanun mövcud idi. Hindistanda narkotik maddələrə meyl göstərən adamları, hətta qadınları belə qəddarcasına cəzalandırırdılar.

Narkomaniya – (narki – bihuşluq + maniya) yunan sözü olub **narkomanik asılılıq** deməkdir. Narkomanik asılılıq narkotik maddələri daim orqanizmə yeritməklə həyat fəaliyyətini müəyyən səviyyədə saxlayan, orqanizmin fiziki və psixi funksiyalarının üzgünlüyünə səbəb olan ağır xəstəlikdir.

Tibb alimləri müəyyən etmişlər ki, narkotik maddələr orqanizmdə iki potensial hal yarada bilir. Birincidə bir narkotik maddələrə aludəçilik meyli yaranan adamlarda **mononarkomaniya**, ikincidə iki və daha çox narkotik maddələrə aludəçilik meyli yaranan adamlarda isə **polinarkomaniya** halı müşahidə edilir.[1] Narkomaniya ictimai xəstəliklərin ən geniş yayılmış formasıdır.

Narkotik maddələr bir çox bitkilərdən alınır. Onlardan birincisi kokain koludur.

Konnabis bitkisi – tiryək xaşxaşıdır. Xalq arasında ona hind çətənəsi və yaxud kənaf deyilir. Bəzən kəndir ini, kəndir tumu, dam otu kimi də işlədilir. Geniş yayılmış adı çətənədir.[2]

II Dünya müharibəsindən sonra Avropada narkomanlıq xeyli artmışdır. 1961-ci ildə ilk dəfə Avropanın bir sıra ölkələri arasında narkotik maddələr üzrə Vahid Konvensiya bağlanmışdır. Bu konvensiyada keçmiş SSRİ dövləti də yaxından iştirak etmişdir.

1971-ci ildə isə Avstriyanın paytaxtı Vyana şəhərində "İnsanlara psixi təsir göstərən maddələrə nəzarət" etmək üçün Avropanın yenidən bir sıra dövlətləri arasında ikinci beynəlxalq saziş bağlanmışdır. Sovet dövləti də bu sazişlərin tərəfdarı olub, narkomanlığın qarşısının alınması üçün qarşıya qoyulan bütün vəzifələrin öz ölkəsində həyata keçirilməsinə nəzarət etmişdir.

Keçmiş SSRİ dövləti öz ərazisində narkomanlığın qarşısının alınması üçün təcili tədbirlər görməyə başlamış, bu sahədə Səhiyyə Nazirliyinə, Daxili İşlər Nazirliyinə, gömrükxana işçilərinə xüsusi tapşırıqlar vermişdir ki, SSRİ-də narkomanlığın yayılmasının və narkotik bitkilərin əkilib-becərilməsinin qarşısının alınmasını tövsiyə etmişdir.

Narkotik bitkilərin müasir aləmə məlum olan bir neçə növü vardır. Məsələn, respublikamızda hind çətənəsinin, ərəbistan çətənəsinin və cunqur çətənəsinin iki növü mövcuddur.

Müasir dövrdə əkilən narkotik bitkilərin tərkibində mərkəzi sinir sistemini qıcıqlandıran, tədricən onun fəaliyyətini zəifləDən maddələr çoxdur. Respublikamızda əkilən bəzi narkotik bitkilərdən müxtəlif dərmanlar hazırlanır ki, bunlardan da tibbidə ağrıkəsən dərmanlar kimi istifadə edilir. Elmi əsaslara görə narkotik bitkilərdən təsiredici maddə olan **alkaloidlər** almaq mümkündür. Əgər narkotik bitkilərdən alınan preparatlardan xəstələr normadan artıq istifadə edərsə, onda adamlarda narkomaniya halı baş verir.

Müasir dövrdə bütün dünya ölkələrində ağrıkəsən dərmanlar ən çox kokain kolunun yarpaqlarından hazırlanır. Lakin bu ağrıkəsən dərmanların özləri də zəhərli sayılır. Onların həkim məsləhəti

---

[1] Bax: Azərbaycan Sovet Ensiklopediyası, VII cild.
[2] Гонопольский М. Х. и др. Наркология. Москва, 1987, с. 60-64.

olmadan işlədilməsi və xəstələrə verilməsi tibb aləmi tərəfindən qəti qadağan edilmişdir.

"Ağ ölüm" müasir dövrdə bir sıra ölkələrin əhalisi arasında böyük tələfat yaratmaqdadır.

Bildiyimiz kimi, narkomaniya məişətdə yayılan neqativ hallardan biri kimi özünü göstərir. Hazırda narkomaniyanın beynəlxalq miqyasda yayılmasının qarşısını almaq üçün ciddi səylər göstərilir. Ölkələr arasında sərhəd xidmətinin hər tərəfli zəif təşkili nəticəsində kontrabanda yolu ilə ölkəmizə də xaricdən narkotik maddələr gətirilir.

Narkotik maddələrin istehsalına və buraxılmasına dövlətlər tərəfindən güclü nəzarət qoyulmuşdur. Respublikamızda da narkomanlıgın və toksikomanlığın qarşısının alınması üçün bir sıra tədbirlər hazırlanmışdır. Eyni zamanda yetkinlik yaşına çatmayanların narkomanlığa cəlb olunması sahəsində də, cəza tədbirləri müəyyən edilmişdir.

Narkotik maddələrdən istifadə edilməsinin qarşısının alınması məqsədi ilə 26 avqust 1996-cı ildə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev tərəfindən "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında"[3] Fərman verilmişdir. Bu Fərmanda qeyd edilir ki, narkomanlığın və onunla bağlı cinayətkarlığın cəmiyyətin inkişafına mənfi təsir göstərməsi bu təhlükəli təzahürə qarşı əsaslı sosial hüquqi tədbirlərin həyata keçirilməsi zərurəti müasir dövrün ən aktual məsələlərindən biridir.

Fərmanda daha sonra qeyd edilir ki, Azərbaycan Respublikasında narkomanlığa, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə ümumdövlət vəzifəsi hesab edilməlidir.

Dövlətin xüsusi nəzarətinə əsasən narkotik müalicəvi maddələr tibbi məqsədlər üçün xüsusi reseptlərlə buraxıla bilər. Respublikamızda narkotik maddələr üçün apteklərə müraciət edən hər kəs haqqında aptek müəssisələrinin işçıləri qanun üzrə narkotik dispanserlərə təcili xəbər verməlidirlər. Bu hal uçotda olmayan narkomanları aşkara çıxarmağa və onları xəstəliyin ilk günündən müalicə etməyə imkan verə bilər. Bu məqsədlə fərmanda Səhiyyə Nazirliyinin qarşısında bir sıra məsələlər qoyulmuşdur ki, nazirlik narkotiklərdən qeyri-tibbi məqsədlər üçün istifadə edən şəxslərin müalicəsi, onların əmək qabilliyətini və sağlamlığını bərpa etmək üçün səmərəli tibbi metodların işlənməsi, tətbiq edilməsi üçün tədbirlər görsün.

Bizə məlumdur ki, indi respublikamızın bütün şəhər və rayonlarında apteklərin sayı birə yüz qat artmışdır. Amma həmin

[3] Bax: "Azərbaycan" qəzeti 27 avqust, 1996-cı il.

apteklərin işçiləri və onlara himayədarlıq edənlər başa düşməlidirlər ki, gizli yollarla əldə edib satdıqları narkotik maddələr adamların məhvinə çevrilmiş bir "odlu silah" dır. Nə vaxtsa bu "odlu silah" onların özlərinə qarşı çevrilə bilər.

Narkomanlığa qarşı səmərəli mübarizə aparmaq üçün bu sahəyə aid dünya miqyasında sessiyalar keçirilir. Belə sessiyalardan biri 1997-ci il fevralın 17-də Müstəqil Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilmişdir. Bu sessiya BMT-nin Narkotiklərə nəzarət üzrə Mübarizə Komitəsinin 32-ci sessiyası idi.[4] Həmin sessiyanın keçirilməsi üçün narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə dövlət komissiyası yaradılmışdır. Sessiyada bir sıra maraqlı məruzələr edilmişdir. Əsas məqsəd kimi, sessiyada Azərbaycanda narkotik bitkilərin əkilib-becərilməsi, inkişafı və dövriyyəsinin qarşısını almaq və onların aradan qaldırılmasının bir sıra yolları göstərilmişdir. Lakin bütün bunlara baxmayaraq son zamanlar güclü gəlir əldə etmək məqsədi güdən bir qrup adamlar tərəfindən narkotik maddələr qanunsuz olaraq hazırlanır, saxlanılır, gizli yollarla respublikaya başqa ölkələrdən gətirilir, əldən-ələ keçirilir və satılır.

Narkotik maddələrə artan daimi tələbat bədəndə fiziki və psixi asılılıq yaradır ki, bu da orqanizmdə narkomaniya adlanan xəstəlik yaradır.[5] Bu zaman narkomanlar məcburiyyət qarşısında qalıb müxtəlif maddələrdən – xaş-xaşdan, morfidən, kokaindən, psixotrop təsirli dərman preparatlarından və s. istifadə etməli olurlar. Bəzi maddələrin bədənə necə təsir göstərdiyi haqda məlumat vermək istərdik: narkotik bitkilər – kokain kolu, xaş-xaş, həşiş və s. Cənubi Amerikada, Afrikada, Asiyada, o cümlədən Orta Asiya respublikalarında, onların bəzi növləri isə Krasnodarda, Azərbaycanın Daglıq Qarabağ zonasının rayonlarında, Balakən, Zaqatala, Masallı, Astara və s. rayonlarında yetişdirilir.

Müasir şəraitdə narkotik maddələrin tərkibi, hazırlanması üsulları dəyişdikcə ona tələbat da xeyli dəyişmiş, maddi maraq gözlənilməz dərəcədə artmışdır.

Məlum olduğu kimi, dünya ölkələrində insanlar narkotik maddələri müxtəlif formalarda qəbul edirlər. Onu papirosa qoyub çəkirlər, çeynəyirlər, qida kimi yeyirlər, içki kimi içirlər, iynə ilə bədənə vururlar və s.

Narkotik maddələrin növlərindən ən çox istifadə olunanı həşişdir. Bu hər şeydən əvvəl onun asanlıqla istifadə edilməsi ilə əlaqədardır. Həşişdən ən çox yeniyetmələr, gənclər istifadə edirlər. Bu sadəcə olaraq gənclərin yeknəsək həyat tərzindən irəli gəlir. Çox

---

[4] Bax: "Azərbaycan" qəzeti, 18 fevral 1997-ci il.
[5] Гонопольский М. Х. и др. Наркология. М., 1987. С. 42-43.

vaxt onlar məclislərdə "yalqızlıq", "harınlıq", "aldanma", bəzən isə "sevinmə" və s. şəraitə düşdükdə baş verir.

Narkotik maddələr qəbul edildikdən 10-15 dəqiqə sonra yaşından, cinsindən, sağlam və ya xəstə olmasından asılı olmayaraq qəbul edən şəxsə mütləq öz təsirini göstərir. Birinci qəbuldan sonra o şəxsdə xoş əhval-ruhiyyə yaradır. Bilavasitə ürək bulanmasına, yüngül baş gicəllənməsinə, bədənin "həyacanlanmasına", adamın özünü azacıq "itirməsinə" səbəb olur. İlk dəfə narkotik maddə orqanizmdə qorxu, həyacan hissi də yaradır. Sonradan xoşagəlməz hiss tədricən ötüb keçir. Narkotik maddələri bir neçə dəfə qəbul etdikdə bədəndə süstlük, aclıq və bədəndə "oyanma" əmələ gəlir. O zaman kimsəyə sataşmaq, ondan əl çəkməmək, zövq almaq, onu incitmək hissi, istəyi yaranır. Özündən asılı olmayaraq narkoman çox danışır, gülür, danışdığı sözlər arasında əlaqə pozulur, öz fikrini cəmləşdirə bilmir. Belə adamlarda ətrafındakılara qarşı ikrah hissi oyanır, gah kədər, gah da qəddarlıq hissi baş verir. Bəzən narkomanların əhvalı tamamilə pozulur, sayıqlayır, nəfəsi daralır, təngnəfəs olur. Bədən qəbul edilmiş maddəyə öyrəndikdən sonra narkomanlığa tutulan adamlar dayana bilmir tez-tez onu qəbul etməli olurlar. Bu da onları faciəli vəziyyətə gətirib çıxarır.

Müşahidələr göstərmişdir ki, digər narkotik maddələrlə müqayisədə narkomanların əksəriyyəti morfiyə daha çox meyl göstərirlər. Morfidən istifadə edənlərin həmişə dodaqları quruyur, bədənlərində istilik, hərarət olur və gecələr yaxşı yata bilmir, iştahı pozulur, tez-tez başağrıları tutur. Bəzən narkomanlar özlərini "şir" kimi, "pələng" kimi göstərirlər. Lakin onlar həm fiziki, həm də psixi cəhətdən zəif olurlar. Buna görə də onlar işə zəif münasibət bəsləyir, pis işləyir, bəzən hətta öz ixtisaslarını itirirlər. Narkomanlar öz orqanizmlərinin tələbatını ödəmək üçün nəyin bahasına olur-olsun narkotik maddəni əldə etməyə çalışırlar. Bu isə onları oğurluğa, fırıldaqçılığa, yalan danışmağa, hətta adam öldürməyə, qadınları isə faişəliyə vadar edir.

Müasir dövrdə kokaindən alınan narkotik maddə ən qədim növ sayılır. Kokain kolu Cənubi Amerikanın və Asiyanın bəzi zonalarında becərilir. Kokain kolunun hündürlüyü 5 metrə çatır. (Bəzən ona kokain ağacı da deyilir). Onun enli yarpağı və sarımtıl çiçəyi olur. Hər kokain kolundan ildə 5 kiloqrama qədər quru yarpaq yığılır. Yığılmış yarpaqlardan kokain **alkoloidi** alınır.[6]

Kokainlə ilk dəfə müalicə XIX əsrin 80-ci illərində ağrıkəsən dərman kimi istifadə olunmuşdur. Son zamanlar isə kokaindən narkotik maddələr kimi geniş istifadə olunur. Xüsusilə Qərbi Avropada geniş yayılmışdır. Kokainə oxşar narkotik maddələr göbələklərdən, dağ laləsindən də alınır.

---

[6] Bax: "Respublika" qəzeti/ 7 avqust 1998-ci il.

Elmə məlumdur ki, narkotik maddələr və yaxud onlardan hazırlanmış preparatları qəbul etdikdə onlar insan orqanizmində skelet əzələlərini tonusdan salaraq narkoz halı yaradır. Bu narkotik maddələrdən alınan dərmanların orqanizmə yeridilməsi üsulundan da çox asılıdır.

Narkotik dərmanlar iki formada olurlar. Tibbi baxımdan onlar **inhalyasiya** və **qeyri-inhalyasiya** maddələrinə ayrılırlar. İnhalyasiya narkotik maddələri uçucu və qaz halındadır. Ondan təbabətdə istifadə edirlər. Qeyri-inhalyasiya maddələrini isə vena qan damarlarına və düz bağırsağa vururlar. Eyni zamanda onlardan tibbidə narkozun gedişini yaxşılaşdırmaq üçün də istifadə edirlər.

Narkotik maddələrin hazırlanması üçün narkotik bitkilərin əkilib-becərilməsinin qadağan edilməsi məsələsinə respublikamızda diqqət yetirilsə də respublika əhalisi arasında hələ də tam şəkildə həyata keçirilmir. Məsələn “xaş-xaş - 2005-ci il” şərti adı ilə Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən kompleks əməliyyat-axtarış və profilaktik tədbirlərin həyata keçirilməsi nəticəsində çəkisi 512 ton 730 kiloqram olan 3 milyon 287min 747 ədəd yabanı halda bitmiş narkotik xassəli bitkilər aşkar edilib, yaşıl kütlə halında məhv edilmişdir. Bu da 2004-cü ildəkindən 111 ton 154 kiloqram çoxdur.

Bəzi rayonların rəhbər işçiləri profilaktik tədbirlər görmək əvəzinə “gözləmə” mövqeyi tuturlar. Bu da Müstəqil Respublikamızın əhalisinə mənfi təsir göstərir. Təkcə onu qeyd edək ki, 2005-ci ildə Respublika Daxili İşlər orqanlarının işçiləri tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı 2114 cinayət faktı aşkar edilmiş, onlardan 742 nəfəri narkotik vasitələrin qanunsuz satışı ilə, 1212 nəfəri narkotik vasitələrin qanunsuz əldə edilib saxlanması ilə, 141 nəfəri narkotik xassəli bitkilərin qanunsuz əkini ilə bağlı olmuşdur.

Respublikamızda aparılmış bir sıra tədbirlər nəticəsində qanunsuz olaraq narkotik maddələrin dövriyyəsi ilə məşğul olan şəxslərdən 245 kiloqram, 418 qram müxtəlif növ narkotik vasitələr tutulmuşdur. Narkomaniya ilə məşğul olan şəxslərdən isə 150 kiloqram 735 qram marixuana, 38 kiloqram 456 qram həşiş, 34 kiloqram 612 qram tiryək, 13 kiloqram 374 qram heroin, 8 kiloqram 814 qram sirkə anhidridi və 14861 ədəd psixotrop maddələr sayılan həb alınmışdır.

2005-ci ildə respublikada 1707 nəfər şəxs cinayət məsuliyyətinə cəlb olunmuşdur. Onlardan 26,1 faizini gənclər təşkil edir ki, bu gənclərdən 6 nəfəri yeniyetmə, 439 nəfəri isə 30 yaşınadək, 1262 nəfəri 30 yaşından yuxarı olan vətəndaşlardır.

Cinayət məsuliyyətinə cəlb edilənlər içərisində tələbələr, qulluqçular, işləməyənlər çoxluq təşkil edir. Bunlardan 56 nəfəri qadın, 1651 nəfəri kişi, 529 nəfəri əvvəllər məhkum olunmayanlar, 44 nəfəri əvvəllər qeydiyyatda olmayanlardır. Bütün bunlar ailələrin

dağılmasına doğru aparıb çıxarır. Bu bəlaya qarşı ciddi mübarizə aparmaq lazımdır. Tibb alimləri müəyyən etmişdirlər ki, narkotik maddələr insan orqanizmində ağ ciyərdə xərçəngqabağı proseslərə, impotentliyə, beyin zədələnməsinə, epilepsik ürək keçmələrinə, psixoza, sonsuzluğa və s. xəstəliklərə səbəb olur.

Narkotik maddəni ilk dəfə qəbul edən adamın orqanizmində incə kimyəvi və fizioloji proseslər başlanır. Baş beyin bədənin aldığı bu "gözəl zövqü" yadda saxlayır. Ən iradəli adamı belə yenidən bu yola vadar edir. Getdikcə orqanizm onun təsiri altına düşür. Narkotik maddələrdən yaxa qurtara bilmir.

Respublikamızda dispanser və profilaktik qeydiyyatda narkotik psixotrop və digər toкsik vasitələr qəbul edənlərin sayı 2004-cü ildə 17230 nəfər olmuşdursa, 2005-ci ildə 17422 nəfər şəxs qeydə alınmışdır. Bunlardan 363 nəfəri qadın, 16 nəfəri isə ali məktəb tələbəsidir.

2005-ci ildə Daxili İşlər orqanlarının işçiləri narkotiklərlə əlaqəli 2114 cinayət faktı aşkar etmişlər. Bu cinayət faktları üzrə qanunsuz dövriyyədən 245 kiloqram 418 qram müxtəlif növ narkotik vasitələr müsadirə olunmuşdur. Müsadirə olunmuş narkotik vasitələrin əksəriyyətini marixuana və tiryək təşkil edir. Bundan əlavə qanunsuz satılan 14861 həb psixotrop təsirli dərman preparatları da müsadirə olunmuşdur.

Təkcə onu qeyd edək ki, 2005-ci ildə aşkar olunan cinayətkarlardan 49 nəfəri xarici ölkə vətəndaşıdır. Bunlardan 20 nəfəri İran İslam respublikasının, 7 nəfəri Rusiya Federasiyasının, 18 nəfəri Gürcüstan, 2 nəfəri Əfqanıstan, 1 nəfəri Ukrayna, 1 nəfəri isə Özbəkistan vətəndaşları olmuşdur. İl ərzində onlardan 14,5 kiloqram müxtəlif növ narkotik maddələr tutulmuşdur.

Azərbaycanda narkomanlığın çoxalmasının ən başlıca səbəblərindən biri Azərbaycan torpaqlarının erməni qəsbkarları tərəfindən işğal olunmasıdır. Məlum olduğu kimi, Azərbaycan torpaqlarının 20 faizi ermənilər tərəfindən işğal olunmuş, bir milyona qədər əhali qaçqın və köçkün vəziyyətinə düşmüşdür. Bu da bizə məlumdur ki, ermənilər işğal olunmuş rayonlarda Azərbaycanın ölü zonası sayılan sahələrdə 15 ildən çoxdur ki, narkotik maddələr əkib-becərirlər. Eyni zamanda ermənilər Əfqanıstandan, Pakistandan, Ərəb ölkələrindən, İrandan və digər ölkələrdən narkotik maddələrin Avropa ölkələrinə daşınmasında Dağlıq Qarabağ zonasından tranzit yolu kimi də istifadə edirlər. Bu da respublika əhalisinə bu və ya başqa formada mənfi təsir göstərir.

Son zamanlar respublikamiz ilə Polşa, Ukrayna, Özbəkistan, Əfqanıstan, Çin, Yaponiya, İran, Türkiyə və s. dövlətlərlə bir sıra sahələr üzrə bağlanmış müqavilələrdə, bir ölkədən digərinə narkotik maddələrin keçirilməsi yollarının qarşısının alınması haqda ayrıca maddələr də öz əksini tapmışdır.

Hər şeydən əvvəl onu da qeyd etmək lazımdır ki, narkomaniyaya qarşı mübarizə aparanların hamısı – polis orqanları da, səhiyyə orqanları da, narkoloji dispanserlər də, təlim-tərbiyə müəssisələri də, tədris-əmək kollektivləri də, ictimai təşkilatlar da bu ciddi bəlaya qarşı mübarizə işində narkomanlığın tibbi, ictimai, iqtisadi, siyasi baxımdan təhlükəli olduğunu nəzərdən qaçırmamalıdırlar.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Sovet Ensiklopediyası, VII cild.
2. Eyyubov İ. "Sağlam məişət sosial nailiyyətdir". Bakı, "Azərnəşr", 1990.
3. Гонопольский М. Х. и др. Наркология. М., 1987.
4. "Azərbaycan gəncləri" qəzeti. 7 aprel 1990-cı il.
5. "Azərbaycan" qəzeti. 27 avqust 1996-cı il.
6. "Azərbaycan" qəzeti. 18 fevral 1997-ci il.
7. "Respublika" qəzeti. 7 avqust 1998-ci il.
8. Azərbaycan Respublikası Daxili İşlər orqanlarının 2004-2005-ci illər üzrə narkotiklərin qanunsuz dövriyyəsi və istifadəsi ilə bağlı hesabatı.


**«БЕЛАЯ СМЕРТЬ» И ФОРМЫ БОРЬБЫ ПРОТИВ НЕЕ**


**И.А.ЭЙЮБОВ**


**РЕЗЮМЕ**


Выращивание наркотических растений и ее использование было известно еще до н. э. в Китае, Индии, Греции.

Наркомания в переводе с греческого означает наркотическую зависимость.

Ученые-медики отмечают, что наркотические вещества оказывают отрицательные воздействия на организм человека. Наркомания вызывает возникновение болезней легких, ведет к появлению психоза, бесплодию.

В статье показаны способы выращивания наркотических средств и ее виды.

В Азербайджане, благодаря принятым мерам со стороны государства, выращивание наркотических растений и их распространение значительно уменьшилось.

В настоящее время армяне используют Нагорно-Карабахскую зону как транзитный путь для переправки наркотических веществ, привозимые из ряда стран Азии и Африки в страны Европы.

В статье показаны основные формы и пути преодоления наркомании.